

***Oktay ABDULLA,***
***Prezident təqaüdçüsü***

## *SALAM*

Düşübdü güzarım bu gün dağlara,
A şır-şır bulaqlar, a yerlər, salam.
Üşüdüb həsrətin o qədər məni,
Yurd yeri, obalar, a ellər, salam.

Axşama az qalır, günəş fağırdı,
Kölgələr qaş-gözlə məni çağırdı.
Bitməyən dastanlar uzun nağıldı,
Keçmişim, sabahım, ay illər, salam.

Güneydə çiçəyin, qüzeydə qarın,
Buludlar yağışın ələsin narın.
Bir ayrı dadı var, yazın-baharın,
Oylağım, məskənim, a çöllər, salam.

Yaxşını, yamandan necə seçməyim,
Diz çökdüm önündə çəmən-çiçəyim.
Dünyada sevdiyim, gözəl-göyçəyim,
Bənövşəm, nərgizim, a güllər, salam.

Çəkilmir başından dumanı, çəni,
Bir baxış, min sual göynədir məni.
Hər qayan, hər daşın söylədir məni.
A dərin dərələr, a göllər, salam.

Ah, dolur, boşalır gözlərim hərdən,
Çağlayan çaylar tək düşmür bəhərdən.
Boylandım hüsnunə qərinələrdən,
Ər oğlu ərənlər, a bəylər, salam.

Duyğusal şairlər sözə can atmış,
Söz də var, inci tək ruhuma yatmış.
Tanrı kainatı gözəl yaratmış,
Qoy baxım doyunca, a göylər, salam.

A dağlar, darıxdın, Oktaya səsdən,
Ey ruhum, ey təbim, düşmə həvəsdən,
Nəğməkar bulaqlar oxuyur pəsdən,
Anamın laylası, a dillər, salam.

Ədalət.- 2020.- 29 fevral.- S.13